# Tarın danışan dili

## Xalq artisti, tarzən Fikrət Verdiyevin ruhuna ehtiramla



**Kənan Hacı**

***Qədim Gəncəni bizə sevdirən xüsusiyyətlər çoxdur... Orda Cavad xanın, Cümhuriyyətimizi quranların ruhu dolaşır. Gəncənin başı göylərlə əlləşən uca Xan çinarları insanın ruhuna dinclik gətirir. Hər şeydən öncə, Nizaminin yurdudur Gəncə. Bu yaxınlarda kaman ustası, Xalq artisti Elşən Mansurovla görüşdük, Xalq artisti, görkəmli tarzənimiz Fikrət Verdiyevlə bağlı xatirələrini bölüşdü. Söhbət əsnasında belə bir ifadə işlətdi: "Biz Fikrət müəllimi görəndə sanki Gəncəni görürdük, üzümüzə Gəncənin havası vururdu". Bu sözlər yaddaşıma həkk olundu, məndə qəribə duyğular oyatdı. Gəncə dünyaya, Azərbaycana çox dahilər bəxş edib. Fikrət Verdiyev də bu qəbil müstəsna insanlardan idi.***

Onun xasiyyəti, təbiəti dupduru su kimi şəffaf idi. Tarı sinəsində o qədər hörmətlə, izzətlə saxlayıb dilləndirirdi ki, elə bilirdin tar yox, o özü öz həyat tarixçəsini danışır. Tarla Fikrət müəllimin arasında tül kimi nazik bir hörmət, ədəb pərdəsi vardı. Bu hörmət, ədəb onun həyatının ana xətti idi, iş yoldaşlarına, tələbələrinə qarşı münasibətdə də həmişə buna riayət etmişdi. Məhz buna görə də hamının hədsiz hörmət və rəğbətini qazanmışdı. Onun tar çalmağı ibadət kimi bir şey idi. Biləyindəki gücün tarın fəryadına çevrilməsi sehr deyil, bəs nədir?! Fikrət Verdiyevin ifasında dən-dən vurulan mizrab ilmələrin toxuduğu xalı heyrətini doğururdu.

Tarın səsi insan səsindən daha genişdir. Bu səs təbiətin (maddi olanın) və Ruhun (maddi olmayanın) vəhdətidir. Suyun, küləyin, yağışın, sevginin səsi tarda o qədər açıq və aydın şəkildə birləşib ki, buna heyrət edirsən. Tar belə bir möcüzədir. Əlbəttə, ustad əlində olanda! Fikrət Verdiyev məhz o sənətkarlardan idi ki, tarı danışdıra bilirdi. O, tarın danışan çağdaş dili idi.

Xalq artisti, tarzən Malik Mansurovdan soruşanda ki, Fikrət müəllimin çalğısını necə səciyyələndirərdiniz, o, bunu son dərəcə orijinal formada ifadə etdi. Dedi ki, "Fikrət Verdiyev mənim yaddaşımda sözün əsl mənasında kişi xarakteriylə qalıb. İfaçının xasiyyəti, xarakteri necədirsə, bu, onun çalğısında da özünü göstərir. Elə ifaçılar var ki, xasiyyətində nəsə bir sürüşkənlik var, görürsən ki, çalğısında da bu özünü biruzə verir. Məsələn, mən bir az hövsələsiz, səbirsiz insanam, bu, mənim ifamda da hiss olunur. Təbii, bu, subyektiv fikrimdir. Görkəmli tarzənimiz Fikrət Verdiyev isə mənim yaddaşımda əzəmətli Azərbaycan kişisi kimi qalıb. Bu əzəmət onun ifasında da özünü göstərirdi. Onun ifaları belə demək mümkünsə, həmişə konkret olub, yəni süni əlavələr, yamaq kimi görünən nəsə olmayıb". Bu, tarzən Malik Mansurovun fikirləridir və zənnimcə, Fikrət Verdiyevi həm şəxsiyyət, həm də sənətkar olaraq bundan dəqiq ifadə etmək mümkün deyil. Xarakterin ifaçının çalğısına təsiri çox mühüm və incə məqamdır. Malik bəy bu məqamı çox dəqiqliklə müşahidə edib.

Tarın səsi ilə idarə olunan kamançanın və xanəndənin yaratdığı möcüzənin sübuta ehtiyacı yoxdur. Tarı ilk dəfə orkestrə qoşan Üzeyir bəy tar dilini universallaşdırmış, onun sonsuz imkanlarının mühüm bir hissəsini ortaya çıxarmışdır. Sonra yetişən tarzənlər məhz bu imkanlardan istifadə edərək yetişiblər. Fikrət Verdiyev də bu sənətə öz yeniliklərini gətirib. O, tar sənəti, ümumən musiqimizin, ifaçılıq sənətimizin xoşbəxt taleyidir. Ustad tarzən texnika ilə bədahətin, ustalıqla bilginin vəhdətini yaratdı. Fikrət Verdiyevin ustadların tarından su içən ustalığı genişlik, dərinlik mənasında o məktəbin yeni bir təsdiqidir.

Bizim ailədə muğama hədsiz bağlılıq vardı. Efirdə "Muğam axşamı" veriləndə hamı televizorun başına yığışardı. Birimizin də cıqqırı çıxmazdı. Bu, muğama olan hörmətdən, sayğıdan irəli gəlirdi. Mən Fikrət Verdiyevi hələ uşaq yaşlarımdan efirdə tez-tez görürdüm; ağ saçlı, ağ kostyumlu, əsl Azərbaycan kişisi. "Göy-göl" ansamblının konsertlərinə həvəslə baxardıq. Rövşən Behcətin, Şahnaz Haşımovanın ifaları ruhumuza hopurdu. Onda hələ bilmirdim ki, hər iki müğənnimizin yetişməsində, geniş kütlə tərəfindən tanınmasında, sevilməsində Fikrət müəllimin böyük rolu olub. Sonralar tale elə gətirdi ki, peşəkar jurnalistika ilə məşğul oldum, mədəniyyətin, incəsənətin müxtəlif sahələriylə bağlı yazılar yazası oldum və uşaq vaxtı ekrandan gördüyüm simaların bir çoxu ilə yaxın ünsiyyətimiz yarandı. Beynəlxalq Muğam Mərkəzinin keçirdiyi tədbirlərdə yaxından iştirak etdim, çıxışlar elədim, yazılar yazdım və Fikrət müəllimin ailəsi ilə münasibətlərimiz belə yarandı. Xatırladım ki, muğam irsimizin yorulmaz araşdırıcısı, dəyərli alimimiz Gülhüseyn Kazımlı bu münasibətlərin yaranmasında bir körpü rolunu oynadı.

***Fikrət müəllimin ömür və sənət yoluna geniş nəzər saldıqca, düşünürsən ki, insan bir ömürə bu qədər işləri necə sığışdıra bilib?! "Göy-göl" ansamblı onun böyük fədakarlığı nəticəsində yaranıb. Minbir əzab-əziyyətlə bu ansamblı yaradıb, kollektivi toplayıb, kollektiv üzvlərinin hər birinə ata qayğısı göstərərək onların dərdinə-sərinə ürəkdən yanıb, problemlərinin həlli üçün çalışıb. Vaxtilə yolu bu ansambldan keçmiş əksər sənətçilərdən eyni sözü eşitdim: "Fikrət müəllim təkcə ansamblın bədii rəhbəri deyildi, o, həm də bizim himayədarımız idi, qayğılarımızla maraqlanırdı, eyni zamanda sənət nöqteyi-nəzərindən son dərəcə tələbkar idi". Hamı bir nəfər kimi onun***





***yüksək təşkilatçılıq qabiliyyətini xüsusi olaraq vurğuladı. O, sözün əsl mənasında bu ansambl üçün həyatını məşələ çevirdi, nəticədə ansamblın şöhrəti nəinki respublikamızda, onun hüdudlarından kənarda da yayıldı. Bu mənada onun Azərbaycan mədəniyyətində xidmətləri əvəzsizdir, ölçüyəgəlməzdir. Jurnalist Fəxrəddin Hacıbəyli Fikrət müəllimin sənətiylə bağlı son dərəcə maraqlı bir məqamı danışdı. Onun dediklərini bu yazıya əlavə edirəm:***

"Korifey sənətkarımız, Xalq artisti Zeynəb Xanlarova öz ansamblı ilə dünyanın əksər ölkələrində konsertlər verib. Bütün qitələrdə o ansamlın ayaq izləri var. Bu ansamla Fikrət Verdiyevin rəhbərlik etməsi heç də təsadüfi deyildi. Bu, təkcə Fikrətin yüksək sənətkarlığı ilə bağlı deyildi, həm də onun bitkin şəxsiyyət olmasından irəli gəlirdi. O, xarici ölkələrdə (Amerikada, Avropada, Çində, Orta Asiyada, ərəb ölkələrində və sair) Azərbaycanı ləyaqətlə təmsil edirdi. Bu məsuliyyəti dərindən dərk edirdi və o ağır vəzifənin öhdəsindən şərəflə gəlirdi. O, bütün dünyada Azərbaycan musiqisinin yorulmaz təbliğatçısı oldu. Bir dəfə mənə danışırdı ki, Yaponiyada konsert verəndə düşünürdüm ki, bunlar bizim dilimizi anlamırlar, tamamilə başqa bir mədəniyyətin daşıyıcısıdırlar, görəsən bizim musiqimizi necə anlayacaqlar? Hövsələləri çatacaqmı dinləməyə? Dedim ay Fikrət, bəs necə oldu? Dedi ki, inanırsan, konsertimiz üç saata qədər çəkdi, gözucu zala baxırdım, bircə səs də eşidilmirdi, hamı diqqətlə bizi dinləyirdi. Soruşdum ki, səncə, bunun səbəbi nə idi? Cavab verdi ki, bu, bizim zəhmətimizin nəticəsi idi. Aylarla məşqlər edirdik, Azərbaycan xalq musiqisinin əsaslarına istinad edirdik. Onlar bunu anlayırdılar, musiqinin ruhunu tuta bilirdilər".

Müstəsnalıq budur, sənətə böyük sevginin göstərici budur! Fəxrəddin müəllim onu da deyir ki, o vaxta qədər mən muğamın fəlsəfəsinə o qədər də bələd deyildim. Fikrət müəllim danışırdı ki, hər muğamın öz fəlsəfəsi var, yaranma tarixi var. Hər muğam və onun şöbələri fərqli duyğuları özündə əks etdirir. "Rast" muğamı haqqında danışdı. Dedi "Rast" muğamının Bərdaştı başqa duyğular oyadır, Maye fərqli hislər oyadır, Üşşaq, Vilayəti, Şikəsteyi-fars, Əra, Pəncgah... bunların hər biri insan duyğularının müxtəlif məqamlarını özündə əks etdirir və tamaşaçılara məhz o duyğuları ötürür. Onlara yad notlar qatmaq, muğamın fəlsəfəsinə xələl gətirmək olmaz.

Bu söhbətləri dinlədikcə Fikrət müəllim sənətkar obrazı gözümdə bütövləşdi, aydınlaşdı. Ötən ilin sentyabrın 28-də Heydər Əliyev sarayında Fikrət Verdiyevin 75 illik yubileyi keçirildi. Dəvət edilənlər sırasında mən də var idim. Unudulmaz bir gün idi. Yubiley tədbirini filologiya üzrə fəlsəfə doktoru Gülhüseyn Kazımlı aparırdı. Fikrət müəllimin ağır xəstə olduğunu bilirdim. İçimdə onun mütləq sağalacağına dərin bir inam hissi var idi. Tədbir başlamazdan öncə foyedə Gülhüseyn müəllimlə ayaqüstü söhbətimiz oldu. Soruşdum ki, necədir Fikrət müəllim, özünü necə hiss edir? Dedi yaxşıdır. Bu inamım bir az da möhkəmləndi: "yaxşıdır, hökmən sağalacaq!"

***Tədbirin sonunda səhnənin kənarına yaxınlaşdım. Fikrət müəllimlə görüşüb onu təbrik etmək üçün dostları, yaxınları, həmkarları, pərəstişkarları sıraya düzülmüşdü. Heç vaxt ağlıma gəlməzdi ki, bu, Fikrət müəllimin vida görüşüdür... Yaxınlaşıb əlini sıxdım, təbrik elədim, ona can sağlığı arzuladım, təşəkkür elədi... O görüşün fotosu da var, Fikrət müəllimlə ilk və son fotomuz – tələsik çəkildiyindən bir qədər bulanıq düşsə də o foto mənə son dərəcə əzizdir.***

***Qısa müddətdən sonra Fikrət müəllim sevdiklərindən və onu sevənlərdən əbədi ayrıldı. Cismən ayrıldı... Amma Azərbaycan musiqisi, Azərbaycan muğamı yaşadıqca o da yaşayacaq! Sənətkar heç vaxt ölmür!***

***Ruhu şad olsun.***

**21 oktyabr, 2023**